

# Səmimi şəraitdə

Saatlı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Sakit Bağırovla hər görüşümüz işgüzar və səmimi şəraitdə keçir. Bu dəfə də elə oldu. Sakit müəllim MKS-nin yaranma tarixindən, kollektivin bu illər ərzində həyata keçirdiyi rəngarəng tədbirlərdən söhbət açdı.

**Saatlı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1976-cı ildən fəaliyyət göstərir. O 1949-cu ildə yaradılan Mərkəzi rayon kitabxanasının əsasında formalaşdırılmışdır. Burada yalnız rayon əhalisinə deyil, həm də Cəbrayıl, Füzuli, Laçın, Şuşa, Zəngilan, Qubadlı, Ağdam, Xocalı və Xocavənd rayonlarının süqutundan sonra Saatlıda məskunlaşmış qaçqın ailələrinə mədəni xidmət göstərilir.**

Mərkəzi rayon kitabxanası, rayonun mərkəzində yerləşməklə Rabitə qovşağı, Mətbuat Yayım idarəsi, Musiqi məktəbi, Dəmiryol idarəsi, Sosial müdafiə fondu, Şahmat məktəbi, Maliyyə idarəsi, Təhsil şöbəsi, İcra hakimiyyəti, Mərkəzi xəstəxana, Statistika idarəsi, Sanitar gigiyena mərkəzi, Şəhər bələdiyyəsi, Hərbi Komissarlıq, Polis idarəsi, 4 uşaq bağçası, Pedaqoji Kollec, Aqrar sənaye Bankı, Səməd Vurğun adına orta məktəb, Məşədi Əzizbəyov adına orta məktəb, Sosial-təminat şöbəsi, 4 saylı Dəmiryol məktəbi, Dövlət sığorta idarəsi və digər çoxsaylı idarələrin əhatəsində yerləşir. Təbii ki, bu amil oxucuların kitabxanaya axınının güclü olmasına gətirib çıxarır.

Ötən dövr ərzində mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Belə ki, Qurban bayramı, 20 yanvar faciəsinin ildönümü, Gənclər günü, 8 mart Beynəlxalq Qadınlar bayramı, Novruz bayramı, Azərbaycanlıların Soyqırımı günü, 9 may Qələbə günü, Respublika günü, Uşaqları Beynəlxalq Müdafiə günü, Milli Qurtuluş günü, Respublika Silahlı Qüvvələr günü, Aqrar İslahatlarla bağlı, Bilik günü, Ahıllar günü, Dövlət Müstəqilliyi günü, Konstitusiya günü, Milli Dirçəliş günü, eləcə də Respublikamızda yubileyləri qeyd olunan şair, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrindən olan Əli Nəzminin 130 illiyinə, rus yazıçısı Aleksey Tolstoyun 125 illiyinə dair sərgi təşkil edilmiş, ədəbiyyatşünas, publisist Firudin bəy Köçərlinin 145 illiyinə dair tədbirlər keçirilmişdir.

Xalq yazıçısı Anarın 70, şair R.Əhmədzadənin 75, Salam Qədirzadənin 85, Mir Cəlalın anadan olmasının 100 illiyinə dair sərgi təşkil edilmiş, Elçinin 65, Mikayıl Müşfiqin anadan olmasının 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecə, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87 illiyinə dair xatirə gecəsi, xalq yazıçısı İsa Hüseynovun 80 illiyinə dair, xalq şairi M.Arazın 75 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmiş, bəstəkar Qara Qarayevin 90 illiyinə həsr olunmuş, yazıçı Cəmşid Əmirovun anadan olmasının 90 illiyinə dair kitab sərgisi təşkil edilmişdir.

Bundan əlavə həmyerlimiz, respublikanın əməkdar mədəniyyət işçisi, qızıl qələm mükafatı laureatı, "Dönüş" qəzetinin baş redaktoru Qaçay Əhmədlinin 60 illiyi, Mesxeti türkü, 8 kitabın müəllifi Şah İsmayıl Adıgünlünün 60 illiyi, gənc şair Qalib Bayramın yaradıcılıq gecələri yüksək səviyyədə keçirilmişdir. Tədbirlər keçirilərkən şair və yazıçıların əsərləri, tarixi şəxsiyyətlərə, eləcə də rayonun iqtisadi-siyasi və mədəni həyatına dair əsərlərin sərgiləri nümayiş etdirilmiş, tövsiyə xarakterli ədəbiyyat siyahısı verilmişdir. "Mədəni-maarif" jurnalı, yerli "Dönüş" və "Sərbəst düşüncə" qəzetləri bu tədbirlərdən bir neçəsini öz səhifələrində işıqlandırmışdır.

Mərkəzləşdirilmiş kitabxana sisteminin 1 yanvar 2011- ci il tarixədək fondunda 392500 nüsxə kitab olmuşdur. İl ərzində 15774 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Bu ədəbiyyatlardan 1452 nüsxəsi Mərkəzi rayon kitabxanasına, 347 nüsxəsi Uşaq kitabxanasına, 500 nüsxə şəhər və qəsəbə kitabxanasına, qalan 13475 nüsxə ədəbiyyatlar isə kənd kitabxanalarına göndərilmişdir.

Daxil olan ədəbiyyatlardan 2133 nüsxəsi ictimai-humanitar elmlərə, 149 nüsxəsi incəsənətə, 13492 nüsxəsi isə filoloji və bədii ədəbiyyata aid olan kitablardır.

Kitab təbliğatının müxtəlif üsullarından istifadə edilmiş və il ərzində 627,06 min nüsxə kitab verilişi olmuşdur. Onlardan 567,40 nüsxəsi Azərbaycan dilində, 60,2 min nüsxəsi rus və digər dillərdədir. Bu kitablardan sistem üzrə 220,6 min nüsxəsi uşaqlar tərəfindən oxunmuşdur.

Oxucu tələbatını ödəmək üçün MKS-in məlumat-biblioqrafiya şöbəsi fəaliyyət göstərir.

Mərkəzləşmiş kitabxana sisteminin əməkdaşlarından İbrahim Xıdırov, Sakit Bağırov, Rəqibə Kərimova, Nəzakət Abbasova, İsrafil Quliyev, Nəsibə Əmiraslanova və digərləri "Dönüş", "Mədəniyyət", "Mədəni-maarif", "Sərbəst düşüncə", "Qanun və həqiqət" jurnal və qəzetlərində müxtəlif vaxtlarda məqalələrlə çıxışlar etmişlər. MKS-in bir çox əməkdaşları metodik mərkəz kimi M.F.Axundov adına Respublika Dövlət Milli kitabxanası ilə müntəzəm olaraq əlaqə saxlayırlar. Onlar həm əməli, həm də praktik olaraq kitabxananın əməkdaşlarından məsləhətlər almışlar. Bütövlükdə MKS 63 kitabxananı, o cümlədən 1 mərkəzi, 1 uşaq, 1 gənclər, 1 şəhər və 59 kənd kitabxanasını birləşdirir.

Oxuculara xidmətin yüksək səviyyədə qurulmasında, kitabxanaların yeni ədəbiyyatlarla zənginləşdirilməsi və təbliğində Nəzakət Abbasova (uşaq şöbəsinin baş kitabxanaçısı), Rəsmiyyə Əliyeva (MKS-in xidmət şöbəsinin baş kitabxanaçısı), Səliyyə Əmiraslanova (MKS-in kitabişləmə və komplektləşdirmə şöbəsinin müdiri), Ehtiram Mirzəyev (Qıraqlı kəndi) , Sədi İbrahimov (Qarayev kənd kitabxanası), Vəsilə Cəfərova (Əlisoltanlı kənd kitabxanası), Saçlı Quliyeva (MKS-in metodisti) və başqalarının fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Kitabxana işinin təkmilləşdirilməsində, MKS və filiallarının maddi-texniki bazasının möhkəmləndirilməsində, fəaliyyətlərinin gücləndirilməsində Saatlı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Sakit Bağırovun xüsusi zəhmət payı vardır.

Bağırov Sakit Ziyad oğlu 1956-cı il fevralın 5-də Cəlilabad rayonunda anadan olub. 11 yaşında ikən ailələri Saatlı rayonunun Sarıcalar kəndində məskunlaşdıqlarından orta məktəbi bu kənddə bitirib.

**BDU-nun kitabxanaçılıq fakültəsinin məzunudur. Ordu sıralarında olub. Kitabxana sahəsində müxtəlif vəzifələrdə çalışıb. 1990-cı ildən MKS-in direktorudur.**

**E. HƏSƏNQIZI**